*Türkiyədən təxliyə olunan azərbaycanlı:*

# "Deyirlər ki, nə vaxtsa qiyamət günü olacaq, məncə bu hadisə qiyamətin özü idi"





Türkiyənin Kahramanmaraş və ətraf vilayətlərində baş vermiş dağıdıcı zəlzələdə zərərçəkmiş Azərbaycan vətəndaşlarının təxliyə prosesi davam edir. İndiyədək təxliyə olunanlardan biri də Türkiyədə təhsil alan Biləsuvar sakini Türkanə Kazımlıdır.

AZƏRTAC xəbər verir ki, Türkanə Kazımlı iki ildir Türkiyədə təhsil alır. O, zəlzələdən bir gün qabaq Qaziantep şəhərinə qonaq gəlibmiş: "Gecə idi, 4 radələrində yuxudan ayıldım. Gördüm ki, ətrafdakı əşyalar tərpənir. Elə bildim yuxudur. Bunun yuxu olmadığını, zəlzələ baş verdiyini anlayandan sonra məni təlaş bürüdü. Binanın necə silkələndiyini təsəvvür edə bilməzsiniz. Hətta ayaq üstə durmaq mümkün deyildi. Dərhal yerə uzandım. Olduğum mənzil binanın altıncı mərtəbəsində idi. Oradan sağ çıxacağımızı ağlıma belə gətirə bilmirdim. Bina xeyli silkələndi. Evdə pişik var idi, o da özünü ora-bura vururdu. Sonra sanki qiyamət başladı, şəhəri insanların harayı, qışqırtısı bürüdü… O səslər hələ də qulaqlarımdadır".

Zəlzələdən sonra həyətə düşərək boş əraziyə toplaşdıqlarını deyən Türkanə bildirir ki, həmin vaxt ailəsi ona görüntülü zəng edib: "Ailəmi görən kimi ağlamağa başladım. Sağ olduğumu, heç bir xəsarət almadığımı onlara bildirdim və narahat olmamalarını söylədim".

Daha sonra ailəsi ilə əlaqəsi kəsilən T.Kazımlı dərhal şəhəri tərk etməyi düşünüb. Qaziantep avtovağzalına gəlsə də, avtobuslarda boş yerin olmadığını görüb.

"Avtobus sürücüsündən xahiş etdim ki, yer olmasa belə məni də götürsün. Sürücü razılıq verəndən sonra mən Adana şəhərinə yola düşdüm. Bilirdim ki, bu, bir riskdir. Çünki Adanada da vəziyyət yaxşı deyildi. Ona görə telefonumun üstünə adımı və telefon şifrəmi yazmışdım. Bir az gedəndən sonra anidən yol aralandı, avtobus həmin çökəyə düşdü. Sərnişinlər qışqırmağa başladılar. Mən həmin an özümü itirmədim və tez sərnişinləri sakitləşdirməyə başladım. Mənim üçün inanılmaz olsa da, gəlib Adanaya çatdıq", - deyə azərbaycanlı tələbə o dəhşətli anları danışır.

Türkanə Adanaya çatandan sonra oradan da avtobusla Mersinə gedib. Lakin Mersinə çatandan sonra məlum olub ki, onları Adanadan təxliyə edəcəklər. Ona görə də yenidən Adanaya qayıtmalı olub. Türkiyədəki səfirliyimizin köməyi ilə Adanadan təxliyə edilib və sağ-salamat Biləsuvara gəlib çatıb.

"Tələbə yoldaşımız Hatayda dağıntıların altında qalaraq öldü. Həmin hadisələri düşünmək belə məndə həyəcan yaradır. Deyirlər ki, nə vaxtsa qiyamət gələcək, məncə bu hadisə bəlkə də qiyamətin özü idi", - deyir Türkanə.

O, ixtisası psixoloq olduğu üçün yenidən Türkiyəyə qayıdıb, oradakı insanlara psixoloji dəstək göstərmək fikrindədir: "Türkiyədə olanda düşündüm ki, burada qalıb insanlara psixoloji yardım edim. Amma fikirləşdim ki, özüm də sarsıntı və qorxu keçirmişəm. Bu halımla heç kimə yardım edə bilmərəm. Gərək mən özümə gəlim ki, sonra başqasına da yardım edim. İnşallah, yenidən qayıdıb həm təhsilimi davam etdirəcəm, həm də insanlara öz köməyimi göstərəcəyəm".




Azərbaycan.- 2023.- 15 fevral.- S.9.